# Regional təhlükəsizlik Azərbaycan multilateralizmi kontekstində

### I MƏQALƏ

## Multilateralizm: nəzəriyyə və diplomatik təcrübə

Xarici siyasətdə və iqtisadi fəaliyyətdə multilateralizm mövzusu yeni deyildir. Bunun siyasi əsası Vestfal sazişi zamanından qoyulmuşdur (XVII əsr). Multilaterallıq çoxtərəfli beynəlxalq münasibətlərdə kimsənin mütləq üstünlüyünü qəbul etməməyə əsaslanır. Bütün iştirakçılar bərabərhüquqlu sayılır. Bu, iqtisadi ilə yanaşı, siyasi aspektə də aiddir. Əsas prinsip isə "qazan-qazan"dır (win-win). Yəni bu, qarşılıqlı əlaqələrə elə bir yanaşmadır ki, qarşı tərəflə münasibətlərdə (məsələn, danışıqlarda, münaqişəni həll edəndə) başlıca ideyası bütün tərəflərin uduşlu olmasından ibarətdir.

Multilateralizmin həm nəzəri əsasları işlənir, həm də onun praktiki-diplomatik fəaliyyət üsulu olaraq araşdırılması aparılır. Qərb politoloji fikrində multilateralizm nəzəriyyəsinin əsaslarını C.Kaporazo, R.Kohen və C.Nayem işləmişlər. Bu təlim çoxtərəfli beynəlxalq münasibətlərin nəzəri dərkidir. Bununla yanaşı, siyasi-diplomatik praktikada multilateralizmin formaları, mənası, əhəmiyyəti və başqa müxtəlif kontekstlər konseptual səviyyədə araşdırılır. Bununla bağlı Qərb politologiyasında K.Buşardın, C.Petersonun, D.Meyerin və digərlərinin tədqiqatları mövcuddur.

Hər iki araşdırma səviyyəsi üçün ortaq olan məqam multilateralizmin dövlətin xarici siyasətinin reallaşması formalarından biri olmasıdır. Bura müxtəlif regionlarda yerləşən dövlətlərin müasir geosiyasi situasiyada xarici siyasətdə multilaterallığı necə reallaşdırdığı məsələsi də daxildir. Bizi problemin məhz bu tərəfi maraqlandırır. Üç səbəbdən: birincisi, müşahidələr göstərir ki, nəzəri olaraq hamının razılaşdığı multilateral xarici siyasətin prinsiplərinə praktikada heç də hamı əməl etmir, ikincisi, dünyanın heç də bütün regionlarında dövlətlər multilateral siyasətlərində uğurlu olmurlar, üçüncüsü, bunların fonunda Azərbaycanın xarici siyasətində multilaterallıq uğurludur.

Vurğulanan üç səbəbin qarşılıqlı əlaqəsində Cənubi Qafqazda Azərbaycan multilateralizminin uğurlarının araşdırılması həm regional inkişaf, həm də təhlükəsizlik baxımından vacibdir. Çünki Azərbaycan nümunəsi başqa regionlar üçün də örnək ola bilər. Öncə, iki nümunə üzərində dayanaq.



## İki müqayisə

Beynəlxalq Məsələlərin Rusiya Şurası (РСМД) Asiya multilateralizmini araşdırmışdır. Son üç ildə Asiya–Sakit okean ölkələrinin xarici siyasətində multilateralizmi nəzərə almaları və bu istiqamətdə irəli sürdükləri təklifləri öyrənmişlər. Bu araşdırma iki təşkilat: Asiya–Sakit okean İqtisadi Əməkdaşlığı (APEC) və ASEAN daxilindəki fəaliyyətlər üzrə aparılmışdır. İndoneziya, Tailand və Kambocanın multilateral siyasətinin təhlili göstərmişdir ki, onları uğurlu saymaq olmaz. Əslində, onların hər biri çox yaxşı ideyalar irəli sürmüşlər. Məsələn, İndoneziya sağlamlığın qlobal arxitekturasını təmin etməyi və rəqəmsal transformasiyanı təklif etmişdir. Tailand pandemiyadan sonrakı dövrdə regionun bərpa olunması ilə bağlı fikrini irəli sürmüşdür. Kamboca isə region dövlətlərinin yeni çağırışlarla mübarizə üçün səyləri birləşdirməsi ideyasını ifadə etmişdir.

Ayrı-ayrılıqda bu təkliflərin hər biri müsbət məna daşıyır və bütövlükdə, Asiya–Sakit okean regionunda əməkdaşlıq və təhlükəsizlik üçün faydalıdır. Ancaq real siyasətdə bunların heç biri lazımi nəticəni vermir. Üstəlik, həmin dövlətlərin heç birinin regional liderliyi qəbul edilmir.

Belə qənaət əldə edə bilərik ki, multilateral ideya gözəl, məzmunlu, aktual və regionun hər bir dövləti üçün faydalı ola bilər, lakin onun praktiki həyata keçməsi gözlənilən nəticəni verməyə də bilər.

Digər nümunə Mərkəzi Asiya dövlətlərinin multilateral siyasəti ilə bağlıdır. Onların hər biri ayrılıqda həmin xətti nəzərə alır. Xüsusilə, Qazaxıstanın xarici siyasətində multilaterallıq geniş yer tutur. Özbəkistan, Türkmənistan və Qırğızıstan haqqında da eyni fikri söyləmək olar. Mərkəzi Asiya politoloqları multilateralizmi əsasən dövlətin ətrafında təhlükəsiz geosiyasi məkanın yaradılması istiqamətindəki fəaliyyəti kimi izah edirlər. Bunda da müsbət məna və həqiqət vardır. Çünki həmin şərt ödəndikdə dövlət inkişafa fokuslana bilir. Lakin geosiyasi kontekstdə problem ondan ibarətdir ki, Mərkəzi Asiyada bütün bu istiqaməti davamlı apara biləcək yerli lider dövlət mövcud deyildir. Ona görə də həmin regionda Rusiya, Qərb və Çinin liderlik rəqabətindən daha çox bəhs edilir. Belə bir şəraitdə multilaterallığın region üçün nə dərəcədə həlledici ola biləcəyi məsələsi tam aydın deyildir.

## Azərbaycan nümunəsi

Belə çıxır ki, multilaterallığa praktiki diplomatik fəaliyyətin konkret nəticələrinə əsasən adekvat qiymət vermək gərəkdir. Çünki multilateral siyasətin nəzəriyyəsi, demək olar ki, oxşar prinsiplərə əsaslanır. Burada başlıca məqsəd beynəlxalq miqyasda dövlətlər arasında çoxtərəfli münasibətləri elə qurmaqdan ibarətdir ki, bundan hər bir iştirakçı qazansın. Burada "qazanmaq" yalnız maliyyə-maddi aspekti ifadə etmir. Onlar da vacibdir. Ancaq sülh, əməkdaşlığın bütün aspektləri, təhlükəsizliyin real təmini, geosiyasi dividendlər kimi dəyərlər də çox əhəmiyyətlidir. O halda məsələ multilaterallıqda kompleks faydalılıqdan söhbət getdiyini dərk etmək mümkündür.

Real olaraq da, müasir mərhələdə müstəqil dövlətin həqiqi mənada multilateral olması əldə edilən kompleks nəticələrə nisbətən müəyyənləşə bilər. Bu kontekstdə Azərbaycan nümunəsi çox faydalıdır. Faktiki olaraq, rəsmi Bakı multilaterallığa praktiki siyasi-diplomatik müstəvidə yeni məzmun vermişdir. Bu tezisin sübuta ehtiyacı vardır.

## Multilaterallığın fəlsəfi özəlliyi

Ümumiyyətlə, "siyasi multilaterallığın" mümkünlüyünün təməlində fəlsəfədə müasir mərhələdə dominant anlayışlardan olan "müxtəlifliyin mürəkkəb sistemdə vəhdəti"nin mümkünlüyü tezisinin sübutu dayanır. Məsələnin fəlsəfi cəhəti üzərində geniş dayanmadan onu vurğulayaq ki, filosoflar (və həm də politoloqlar) mürəkkəb və açıq qeyri-xətti sistemlərdə müxtəlifliyin vəhdətinin bir şərt olduğu qənaətindədirlər. Yəni bu vəhdət, bütövlükdə, mürəkkəb sistemlərin təbiətinə aiddir – kənardan süni daxil edilən faktor deyildir. Siyasi və geosiyasi sistemlər üçün bu tezisin xüsusi məzmunu olması məsələsi artıq başqa məqamdır. Hər bir halda, müasir regionları kifayət qədər mürəkkəb struktura və funksiyalara malik sistem kimi təsəvvür etmək olar (hətta, onları sistemüstü şəbəkə olaraq da qəbul edən araşdırmaçılar vardır).

Deməli, konkret regionda multilaterallıqda uğurlu olmaq həmin regionun mürəkkəb və açıq sistem (və ya şəbəkə) kimi adekvat siyasi-nəzəri dərkindən birbaşa asılıdır. Görünür, İndoneziya, Tailand, Kamboca və Mərkəzi Asiya dövlətləri məhz problemin bu aspektinə dərindən yiyələnə bilməyiblər. Və yaxud, kənardan olan güclü təsirlərə lazımi müqavimət göstərərək kifayət qədər müstəqil siyasi kurs həyata keçirə bilmirlər. Bu faktın fonunda Azərbaycanın Cənubi Qafqazı mürəkkəb və açıq region olaraq siyasi-nəzəri dərindən dərk etdiyi fikrini irəli sürmək olar. Bunun bazasını keçən əsrdə ulu öndər Heydər Əliyev qoymuşdur. XXI əsrdə isə Prezident İlham Əliyev konkret fəaliyyəti ilə həmin xətti inkişaf etdirdiyini göstərir.

Deməli, ilk olaraq deyə bilərik ki, Azərbaycanda multilaterallığın uğurlu olmasının nəzəri və praktiki təməlində multilaterizm ənənəsinin mövcudluğu dayanır. Bu, çox vacib geosiyasi məqamdır. Söhbət konkret olaraq hansı təcrübədən gedir? Bu təcrübə 1993-cü ildən başlayaraq üç istiqamətdə qurulan siyasi-diplomatik fəaliyyətin nəticəsində toplanmışdır.

Birincisi, ulu öndər Heydər Əliyev "Əsrin müqaviləsi" ilə Azərbaycanın xarici siyasətində yalnız qarşılıqlı faydalı qazanc üsuluna üstünlük verdiyini dünyaya nümayiş etdirdi. Və ən əhəmiyyətlisi ondan ibarət idi ki, tarixdə ilk dəfə olaraq, bu regionda müstəqil bir dövlət multilaterallığı üç aspektdə birləşdirə bilmişdir – geosiyasi, təhlükəsizlik və iqtisadi əməkdaşlıq. Yəni "Əsrin müqaviləsi" yalnız və heç də enerji məsələsini əhatə etmirdi. O sənəd özündə Azərbaycanın bir müstəqil dövlət olaraq regional və qlobal miqyaslarda qarşılıqlı faydalı geosiyasi, siyasi, təhlükəsizlik və iqtisadi əlaqələri yaratmaq və inkişaf etdirmək strategiyasını ifadə edir. Bu xəttin Avropa da daxil olmaqla geniş bir geosiyasi coğrafiyada son dərəcə səmərəli olduğunu təcrübə sübut etdi. "Əsrin müqaviləsi" Azərbaycanın xarici siyasətində multilaterallığı ifadə edən özəl yerə və rola sahibdir!

İkincisi, milli ideyanın ərazi bütövlüyünün bərpası məzmununda müəyyən edilməsinin təməlində ideya olaraq Azərbaycanın kiməsə qarşı aqressiv mövqeyi deyil, pozulmuş haqqını bərpa etməklə regional miqyasda qarşılıqlı faydalı əməkdaşlıq formatına keçidi təmin etmək dayanırdı. Bu kursun fəlsəfi və siyasi-nəzəri mənası çox böyükdür. Təsəvvür edək ki, əsrlərlə ətraf dövlətlərdən müxtəlif aspektlərdə təzyiq, təsir, pozucu fəaliyyət görən bir müsəlman ölkəsi strateji seçimində öz hüququnu bərpa edəndən sonra hər kəsə sülh və əməkdaşlıq əlini uzadacağını milli ideyasının məzmununda ifadə edir. Azərbaycan bu sferada çox dəyərli təcrübə əldə etmişdir ki, onun bəhrələrini indi görür.

Üçüncüsü, Azərbaycan özünün daxili ideoloji multilateral mühitini yaratmaqla, siyasi aspektdə multilaterallığı beynəlxalq miqyasa geosiyasi transfer etməyə nail oldu. Yəni Azərbaycan cəmiyyətdə azərbaycançılıqla multikulturalizmin optimal sintezinə nail ola bilməsəydi, xarici siyasətində multilaterallıq istiqamtində indiki kimi uğurlu ola bilməzdi. Bu məqamı tədqiqatçılar tez-tez unudurlar. Lakin beynəlxalq təcrübədən bir nümunə problemin aktuallığını aydın görməyə imkan verə bilər.

Biz yuxarıda Asiya–Sakit okean regionunda multilateral təşəbbüslərin gözlənilən nəticəni vermədiyini vurğulamışıq. Tədqiqatçılar bunun konkret səbəblərini də göstərirlər. Doğrudan da, həmin müsbət təşəbbüslər niyə Asiya–Sakit okean regionunda müsbət sonuc vermir?

**(ardı var)**

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki,***
***fəlsəfə elmləri doktoru***